Respublika.- 2019.- 5 aprel.- S.7

# Şuşa Uşaq Musiqi Məktəbi



Heç də təsadüfi deyildir ki, ölkəmizin zümrüd qaşı olan Şuşanı təbii konservatoriya adlandırmışlar. Şuşa elm, mədəniyyət, incəsənət, ədəbiyyat, ələlxüsus musiqi sahəsində dahilər yetişdirmişdir. Şuşa havası və suyuna görə "Yer cənnəti" deyilən məkanın ən qiymətli bir köşküdür. Şuşadakı Turşsu, İsabulağı, Armudlu bulaq, Səkili bulaq, Daşaltı gölü, Topxana meşəsi, Cıdırdüzü mağarası, Saqqaxana, məşhur Gövhərağa məscidi, Natavan bulağı və sair tarixi yerlər dünyanın ən unikal incilərindən hesab oluna bilər. Qeyd etmək lazımdır ki, Şuşa həm də dahilər məskənidir.

M.M.Nəvvab, Y.V.Çəmənzəminli, X.B.Natəvan, Q.B.Zakir, C.Qaryağdıoğlu, F.Kəminə, Baki, S.Şuşinski, X.Şuşinski, R.Behbudov, Ə.Haqverdiyev, Sadıqcan və ən nəhayət Bülbülcan bu torpağın təkrarolunmaz şəxsiyyətlərindəndir.

Şuşa həm də incəsənət və musiqi sahəsində təbliğat mərkəzi olmuşdur. Belə ki, bir çox şairlərin, musiqiçilərin, xanəndələrin toplaşdığı və burada fəaliyyət göstərdiyi XIX əsrdə nəinki Şuşada, Azərbaycanda, eyni zamanda Şərqdə məşhur olan X.B.Natəvanın adı ilə bağlı "Məclisi-üns" və M.M.Nəvvabın adı ilə bağlı olan "Məclisi-fəramüşan" ədəbi məclisləri də bu şəhərdə fəaliyyət göstərmişdir. Heç şübhəsiz ki, belə bir musiqi beşiyinin yetirmələri elə bu gün də fəaliyyətdədirlər. Şuşa Uşaq Musiqi Məktəbləri içərisində uğurla fəaliyyət göstərən məktəblərdən biri də Sumqayıt Regional Mədəniyyət İdarəsinin Bülbülcan adına Uşaq Musiqi Məktəbidir.

Məktəbin direktoru ali ixtisas təhsilli və təcrübəli musiqiçi olan Raqif Məhərrəmovla söhbət edərkən o bildirdi ki, məktəb məcburi köçkün düşdükdən sonra dövlətimizin yaxından köməkliyi ilə fəaliyyətini davam etdirdi. Hökumətimizin qayğısı nəticəsində hərtərəfli fəaliyyət nəinki müasir bina, eyni zamanda texniki və musiqi vasitələri, alətləri ilə təmin olunmuşdur ki, bu da uşaqların tərbiyə və təhsilinə böyük təsir göstərir. Raqif müəllim onu da bildirdi ki, Sumqayıt Regional Mədəniyyət İdarəsinin köməkliyi ilə yeni-yeni uğurlar əldə edir. Məcburi köçkünlük dövründən sonra məktəb Xəzər rayonunun Mərdəkan qəsəbəsində H.Z.Tağıyev adına 123 saylı tam orta məktəbin binasında fəaliyyətə başlamışdır. Qeyd edilməlidir ki, burada uşaqlar üçün hər cür şərait yaradılmışdır.



Məktəb direktoru qeyd etdi ki, indi məktəbdə 219 nəfər şagirdə 7 ixtisas üzrə 37 müəllim dərs deyir, onların da yarıdan çoxu ali ixtisas təhsilli musiqiçilərdir. Elə bunun nəticəsidir ki, nəinki rayon, regional idarənin xətti ilə keçirilən tədbirlərdə, eyni zamanda respublika əhəmiyyətli tədbirlərdə də məktəbin müəllim və şagird kollektivi yaxından iştirak edir. İcra hakimiyyəti və nazirlik tərəfindən təşəkkürlər alır. Məktəbin bir çox şagirdləri respublikamızda keçirilən müsabiqələrdə, festivallarda, olimpiadalarda, konkurslarda, televiziyada təşkil olunan istedadlı uşaqların yarışlarında yaxından iştirak edir. Məktəbin bir neçə şagirdi Milli Filarmoniyanın səhnəsində tanınmış dirijorların rəhbərliyi ilə uğurla çıxış etmişlər. Müsabiqə qalibi olan Aysu Abbasova, Səməndər Hacızadə və Əvəzağa Hacızadənin çıxışları bu qəbildəndir. 2018-ci ilin oktyabr ayında Muğam Mərkəzində Bülbülün 175 illiyi ilə əlaqədar kitab təqdimatında məktəbin şagirdləri uğurla çıxış etmişlər. Onlar bu çıxışlarına görə mədəniyyət naziri Ə.Qarayevin təşəkkürünü almışlar.

Cari ilin fevral ayında Bəstəkarlar İttifaqında S.Ələsgərovun 95 illik yubileyinə həsr olunmuş tədbirdə məktəbin uşaqları yüksək səviyyədə çıxış etmişlər. Bu tədbirdə Əvəzağa Hacızadə, Səməndər Hacızadə, xanəndələrdən Siyavuş Mehdiyev, Xəyalə Əliyeva, Kənan Qasımzadə, Zəhra Bağırova və başqaları fəal iştirak etmişlər. Tədbirdə iştirak edən bəstəkarlar ittifaqının sədri Firəngiz Əlizadə, musiqişünas alim, professor Zemfira Qafarova, Sumqayıt Regional Mədəniyyət İdarəsinin rəhbərliyi və idarənin Şuşa şəhəri üzrə məsul nümayəndəsi Z.Abbasov bəstəkar S.Ələsgərov haqqında öz xatirələrini danışmışlar. Fərəhlə qeyd etməliyik ki, məktəbin məzunu Qələm Qocamanovanın 1-ci televiziya müsabiqəsindəki uğurlu çıxışı da ictimaiyyət tərəfindən müsbət qarşılanmışdır.

**Zabit CAVADOV,**